**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AVROPA İTTİFAQININ XARİCİ SİYASƏTİNİN İNSTİTUSİONAL MEXANİZMLƏRİ VƏ AZƏRBAYCANLA MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: **5901.01 – Beynəlxalq münasibətlər**

Elm sahəsi: **Siyasi elmlər**

İddiaçı: **Nigar Tahir qızı Sultanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** siyasi elmlər doktoru, professor
**Aqiyə Həbib qızı Naxçıvanlı**

**Rəsmi opponentlər**: siyasi elmlər doktoru
**Sevda Ağamirzə qızı Əliyeva**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Zümrüd Eldar qızı Məlikova**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Xəyyam Fərman oğlu İsmayılov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** akademik
______________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, prof. əv.
______________________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof. əv.
______________________ **Adil Mirabdulla oğlu Mirabdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tədqiqat mövzusunun aktuallığı ilk növbədə Avropa İttifaqının (Aİ) institutlarının təkamülü və bu institutlar tərəfindən razılaşdırılmış xarici siyasət fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədardır ki, bu da Aİ-nın effektiv fəaliyyətinin və beynəlxalq aləmdə təsirinin artmasının əsas aspektidir. Lissabon Sazişinə uyğun institusional islahatlar fonunda, nəzəri və konseptual yanaşmalar vasitəsi ilə Aİ xarici siyasət qurumlarının inkişafının əsas tendensiyalarını və perspektivlərini müəyyənləşdirmək çox aktual görünür.

Bu qurumların fəaliyyətinin effektivliyi həm seçilmiş xarici siyasət mexanizmlərinin növündən, həm də vaxtında tətbiq olunmasından asılıdır. Məsələn, öz silahlı qüvvələri olmadıqda, Aİ koordinasiya mexanizmləri və institusional bazası uzun bir formalaşma yolu keçmiş sanksiya siyasətini kifayət qədər inkişaf etdirdi. Bu gün Aİ-nın məhdudlaşdırıcı tədbirləri Avropa xarici siyasət arsenalının işlək alətləridir. Aİ-nın tətbiq etdiyi effektiv əlaqələndirilmiş təşviq siyasətindən və məhdudlaşdırıcı tədbirlərdən yalnız Aİ-nın xarici siyasət qurumları və mexanizmlərinin formalaşdığı dövrdən başlayaraq danışmaq mümkündür ki, bu da tədqiqatın yeniliyini və aktuallığını müəyyənləşdirir.

Birgə Xarici və Təhlükəsizlik Siyasətinin Avropanın siyasi əməkdaşlığını əvəz etməsi, institusional mexanizmlərin təkmilləşdirilməsi və Aİ-na qanuni legitimlik verilməsi tədqiqat işləri üçün sahəni xeyli genişləndirdi.

Şözsüz ki, bu qurumların xarici siyasət fəaliyyəti Aİ-nın digər ölkələrlə, ilk növbədə Azərbaycan Respublikası ilə münasibətləri kontekstində öyrənilməlidir. İttifaqın müxtəlif institutları vasitəsilə Aİ-nın Azərbaycanla əlaqələrin genişləndirməsi mövzusu aktualdır və xüsusi təhlil tələb edir. Bu cür təhlil Aİ-nın həm əsas institutlar, həm də köməkçi orqanlarının xarici siyasət sahəsindəki fəaliyyətinin səmərəliliyini qiymətləndirməyə imkan verir. Azərbaycanın uğurlu xarici siyasəti regionda və onun kənarında yeni əməkdaşlıq formatlarını yaratmışdır. Azərbaycanın Aİ üçün strateji əhəmiyyəti, xüsusilə Avropa enerji təhlükəsizliyinin təmin edilməsi kontekstində Avropa İttifaqının ali rəhbərliyi tərəfindən dəfələrlə vurğulanmışdır.

Aİ Şurasının prezidenti Donald Tusk qeyd etmişdir ki, "*Cənub Qaz Dəhlizi (CQD), sözün əsl mənasında, Aİ və Azərbaycanı birləşdirir və bu müsbət məqam bizim tərəfdaşlığı daha da yüksək səviyyəyə gətirib çıxartmalıdır*".[1]

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və çevik ittifaqlar strategiyasının həyata keçirilməsini təmin edən Azərbaycan Respublikasının çoxvektorlu xarici siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirməsinə, Cənubi Qafqazda regional liderə çevrilməsinə, həmçinin dövlət müstəqilliyini təmin etmək və gücləndirmək üçün mövcud resursların düzgün yönəldilməsinə və yeni potensialın artırılmasına imkan verdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir şəraitdə milli maraqlar nəzərə alınmaqla, yeni məzmunla tamamlanan Aİ ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsi kursunu uğurla davam etdirir.

44-günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsi nəticəsində yaranmış yeni reallıqlar Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "*uzunmüddətli sülhün təmin edilməsi üçün önəmli şərtlər yaratmışdır və bununla əməkdaşlıq üçün imkanlar genişlənmişdir*".[2] Avropanın müharibədən sonrakı təcrübəsi, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət sahəsində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan sülh və sabitliyə nail olmağın mümkünlüyünü və zəruriliyini təsdiqləyir. Yuxarıda qeyd olunanlar, Aİ-nın xarici siyasətinin institusional arxitekturasının, o cümlədən Azərbaycanla münasibətlər kontekstində araşdırılmasını aktuallaşdırır.

Aİ-nin xarici siyasət institutlarının fəaliyyəti ilə bağlı problemlərin kompleksinin tədqiqinə Azərbaycan və xarici müəlliflər öz töhfələrini vermişlər. H. Rəcəbli, İ.Stesenko, V.Kayzer və

---

[1] İlham Əliyev və Aİ Şurasının Prezidenti Donald Tusk mətbuat üçün bəyanatla çıxış etdilər // Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı - 09/07/2019 URL: *https://president.az/articles/33774*

[2] Yeni Azərbaycan Partiyasının VII qurultayında İlham Əliyevin giriş nitqi // Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı– 05/03/2021 URL: *https://president.az/articles/50805*

digərlərin Aİ-nın institutlarının formalaşmasının öyrənilməsinə[3], eləcə də O.Kosta, N.Rayt, N.Kaveşnikov, M.Strejnyova, S.Miroşnikov, N.Arabatovanın və digər alimlərin inteqrasiya prosesinin nəzəri aspektlərinə və Aİ-nın xarici siyasətinin müxtəlif istiqamətlərinə[4] həsr olunmuş əsərlərində, Avropa inteqrasiya prosesinin inkişafındakı əsas tendensiyaların keyfiyyətli öyrənilməsinə kömək edən Aİ xarici siyasətinin institusional inkişaf dinamikasını ortaya qoyur.

Aİ institutlarının fəaliyyətinin hüquqi aspektləri baxımından, avropa inteqrasiyası problematikasının tədqiqinə geniş faktoloji material, dərin nəzəri təhlili sayəsində böyük töhfə verən M.Lobo, D.Aşiaqbor və digər qərb tədqiqatçıların əsərləri maraq doğurur. [5]

Aİ ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafı və strateji tərəfdaşlıq əlaqələri enerji, təhlükəsizlik, Şərq Tərəfdaşlığı (ŞT) çərçivəsində R.Qasımzadə, R.Qonaqov, T.Ziyadov, C.Eyvazov, X.Mehtiyeva, F.Hüseynov, R.Sadıqov və digər müəlliflərin əsərlərində təhlil olunmuşdur.[6] Lakin, bu əsərlər tədqiqat üçün tam

[3] Rəcəbli H. Avropa Beynəlxalq təşkilatları. Bakı: Qanun, -1999, 92 s. Стенценко, И.П. Формирование и развитие интеграционных процессов в Европейском Союзе, СПб,-2003,-151с.; Kaiser,W., Leucht, B. & Rasmussen, M.,The History of The European Union. Origins of a Trans- and Supranational Polity 1950-72. London: Routledge, - 2011, - 240 p.

[4] Costa, O. A União Europeia e sua política exterior. Brasilia: FUNAG,- 2017,- 229 p.; Wright, N. EU's Common Foreign and Security Policy in Germany and the UK New York: Springer,-2019, -309 p.; Стрежнева, М. и Руденкова, Д. Европейский союз: архитектура внешней политики. М.:ИМЭМО,-2016,-135с.; Кавешников.Н.Ю. Трансформация институциональной структуры Европейского Союза. М.:Навона,-2010,-480с.; Мирошников, С. Институты Европейского Союза: структура, функции, процесс принятия решений. Томск: ТГУ- 2015,-142с.;Арбатова, Н.К., Кокеев А.М. Европейский Союз на перепутье: нерешенные проблемы и новые вызовы. М: ИМЭМО РАН,- 2016,- 234 с.

[5] Lobo, M. Manual de direito comunitário. Curitiba: Juruá,-2007,-433 p; Ashiagbor, D., Countouris, N. & Lianos, I. The European Union after the Treaty of Lisbon. Cambridge: Cambridge University Press-2012,-333 p.

[6] Гасымзаде, Р. Взаимоотношения Азербайджанской Республики и Европейского Союза в рамках региональной интеграции и программы «Новое соседство»: Дис.на соиск.уч.ст.д.ф. по п.н. Баку,-2007, 160 с.; Qonaqov, R.R. Xəzər hövzəsinin enerji ehtiyatları və onun avropanın enerji təhlükəsizliyində rolu: S.e. f.d. dis. Bakı,-2018; Эйвазов, Дж. Безопасность Кавказа и стабильность

olaraq istifadə oluna bilməz, çünki Aİ ilə Azərbaycan arasındakı münasibətlərin yalnız müəyyən aspektlərini əhatə edir. Problemin öyrənilməsinə vacib töhfə S.Həmidovun “Avropa İttifaqında siyasi inteqrasiya problemi» əsəri olmuşdur ki, burada siyasi əməkdaşlıq üçün institusional mexanizmlərin əsasları hərtərəfli təhlil olunur.[7] Lakin, dissertasiyanın yazılma tarixini nəzərə alsaq, ondan sonra baş vermiş bir çox institusional dəyişiklər orada öz əksini tapmamışdır. Məsələn, müxtəlif institutlar arasında mübahisələrə səbəb olmuş Avropa Xarici Əlaqələr Xidməti, 2011-ci ildə yaradılmışdır.

Aİ-nın xarici siyasətinin institusional mexanizmlərinin fəaliyyətinin təhlilində nəzəri əsasların öyrənilməsi və dünya ölkələri ilə, xüsusilə də Azərbaycanla, münasibətlərin qurulmasında praktik tətbiqi baxımından boşluqlar da qeyd olunmalıdır.

**Tədqiqatın obyekti** Avropa İttifaqının xarici siyasətini formalaşdıran və dünyanın müxtəlif bölgələrində və xüsusən də Azərbaycana münasibətdə həyata keçirən institusional mexanizmlərdir, **predmeti** isə mövcud nəzəri və konseptual yanaşmalar əsasında və xarici siyasətin formalaşma prosesi, eləcə də mövcud vəziyyət baxımından təhlil olunan dünyanın müxtəlif ölkələri ilə, xüsusilə Azərbaycanla münasibətlər kontekstində institusional mexanizmlərinin fəaliyyətinin xüsusiyyətləri və problemləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi geniş nəzəri və praktiki material, eləcə də sənədli mənbələr əsasında Aİ-nın institusional xarici siyasət mexanizmlərinin işinin effektivliyinin dərəcəsi, aktual problemləri və gələcək inkişafının tendensiyaların xüsusən Azərbaycanla münasibətlər kontekstində təhlil etməkdir.

Tədqiqatın məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və tamamlanmışdır:

---

развития Азербайджанской Республики, Баку: Нурлан,-2004,-357 с.; Ziyadov T. Azerbaijan as a Regional Hub in Central Eurasia. East-West Pub.,-2011,-91p.; Mehdiyeva, X. Cənubi Qafqaz respublikalarinin Avropa strukturlarına inteqrasiyası: müqayisəli təhlil. S.e.f.d. dis. Bakı, - 2017; Sadıqov, R. Avropa İttifaqının Şərq siyasətində Cənubi Qafqaz regionu. S.e. f.d. dis. Bakı,-2011; Гусейнов, Ф. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики. Дис. на соиск.уч.ст.д.ф.по п. н. Баку,-2011,-163с.

[7] Həmidov, S. Avropa İttifaqında siyasi inteqrasiya problemi: S.e..f.d.dis.Bakı, 2007

- Aİ-nın xarici siyasəti və onun institutların fəaliyyəti ilə əlaqəli əsas nəzəri-konseptual yanaşmaları tədqiq etmək;
- Avropa inteqrasiyası prosesi zamanı razılaşdırılmış xarici siyasətin formalaşmasının təkamülünü öyrənmək, institutların formalaşmasına təsir göstərən əsas mərhələləri müəyyənləşdirmək, habelə Lissabon Sazişi qüvvəyə mindikdən sonra baş verən struktur dəyişiklikləri qiymətləndirmək;
- Aİ-nın xarici siyasətinin formalaşmasında iştirak edən bütün institusional mexanizmlərin strukturunun xüsusiyyətlərini müəyyənləşdirmək;
- Qərar qəbuletmə və tətbiqi prosesində Aİ-na üzv dövlətlərin iştirak dərəcəsi nəzərə alınmaqla, Aİ-nın xarici siyasət institutlarının fəaliyyətinin effektivliyini müəyyənləşdirmək;
- Aİ tərəfindən müasir dövrdə qəbul edilən qərarlar əsasında İttifaqın xarici siyasət alətlərinin tətbiqi sahələri və metodları barədə nəticələr hazırlamaq və bunun üçün razılaşdırılmış Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin (ÜXTS) inkişafındakı əsas tendensiyaları müəyyənləşdirmək;
- Aİ institutlarının digər ölkələrə və xüsusən də Azərbaycana münasibətdə fəaliyyətinin səmərəlilik dərəcəsini təhlil etmək;
- Aİ ilə Azərbaycan Respublikası arasındakı münasibətləri tənzimləyən hüquqi və normativ bazanı təhlil etmək və Avropa Qonşuluq Siyasəti və ŞT proqramı çərçivəsində Azərbaycanın Aİ ilə münasibətlərini araşdırmaq;
- Aİ ilə Azərbaycan arasında enerji əməkdaşlığının əsas aspektlərini araşdırmaq.

**Tədqiqat metodları**. Lissabon Sazişinə uyğun olaraq xarici siyasət institusional mexanizmin islahatlarının əsas istiqamətləri sistem və rəsmi-məntiqi yanaşmalar yolu ilə tədqiq olunmuşdur. İnstitusional mexanizmlərin tətbiqində konkret sahələrin tədqiqi üçün struktur-funksional, vəziyyətin təhlili (*case study*) metodları və qərar qəbul etmə prosesinin öyrənməyə imkan verən desizion metodundan, eləcə də kontent-analiz və bir sıa digər elmi tədqiqat metodlarından istifadə edilmişdir. Aİ-nın xarici siyasət institularının islahatlar prosesini təhlil etmək üçün ümumi elmi metodlar xüsusilə də

induksiya və deduksiya, analiz və sintez metodları kimi tətbiq edilmişdir.

Eyni zamanda tədqiqat işinin nəzəri və metodoloji əsası banisi ümummilli lider Heydər Əliyev olan Azərbaycanın xarici siyasət strategiyası və Prezident İlham Əliyevin Aİ daxil olmaqla beynəlxalq ictimayyətlə bərabərhüquqlu tərəfdaşlığın qurulmasına hədəflənmiş siyasəti olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Aİ-nın vahid xarici siyasət mexanizminin daha effektiv işləməsi üçün vacib şərt, Aİ üzv dövlətlərin ittifaqdaxili "korporativ" mədəniyyəti və xarici siyasət qurumları arasında fəaliyyətin əlaqələndirilməsi ilə müəyyən ediləcək zəruri institusional dəyişikliklər məcmusudur.
2. Müasir problemlər (terrorizm, qeyri-qanuni miqrasiya COVID-19 pandemiyası və s.) xarici siyasət institutlarının işini aktuallaşdırır və bu baxımdan ortaya çıxan problemlərə effektiv həll yolları tapmaq üçün adekvat axtarış və uzunmüddətli strategiyaların hazırlanması üçün hərtərəfli təhlil tələb olunur.
3. Yeni beynəlxalq mühitində, genişlənmiş Avropanın gələcək fəaliyyəti üçün bir neçə ssenari yaranıb və qüvvələrin yeni düzəni nəzərə alınaraq, bu gün Avropa inteqrasiyasının müvəffəqiyyəti bu ssenarilərdən birinin seçilməsində və ya yeni bir modelin hazırlanmasından asılıdır.
4. Aİ ilə Azərbaycan arasında yeni Sazişin imzalanmasına dair danışıqların, eləcə də Azərbaycan və Aİ-nın qarşısında duran məqsəd və vəzifələrin başa düşülməsi kontekstində ehtimal edilir ki, bu saziş tərəflərin əlaqələrini yenidən formatlaşdıracaqdır və Aİ-nın regional proseslərdə iştirakının artırılması üçün əlverişli şərait yaradacaqdır.
5. Azərbaycanın Aİ ilə ən geniş spektrdə münasibətlərinin təhlili, Azərbaycan kimi etibarlı bir tərəfdaşla əməkdaşlığın bölgədə və bölgədən kənarda Avropa layihələrinin uğurla həyata keçirilməsi üçün vacib şərt olduğunu göstərir.
6. Müxtəlif sahələrdə Aİ ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlığının konkret misallarında, Aİ xarici siyasətinin bir sıra institusional mexanizmlərinin təkamülü ilə ikitərəfli

münasibətlərin inkişaf dinamikası arasındakı qarşılıqlı əlaqə müəyyən edilir.

**Tədqiqatın elmi yeniliyi**:

1. Aİ-nın xarici siyasət institusional mexanizmlərinin formalaşması və inteqrasiya prosesinin konsolidasiyası, habelə Aİ-nın xarici siyasət strukturundakı son dəyişikliklər fonunda, Avropanın xarici siyasət fəaliyyətini müxtəlif modellər çərçivəsində əks etdirən bir sıra nəzəri-konseptual yanaşmalar təhlil edilmişdir;
2. Mövcud nəzəri və konseptual yanaşmaların substantiv araşdırılması əsasında Aİ xarici siyasət institutlarının *SWOT* təhlili təqdim edilmişdir;
3. Müasir təhlükələr və qlobal çağırışlar kontekstində institutların fəaliyyətinin hərtərəfli təhlili aparılmış və mümkün institusional dəyişikliklərin vektorları müəyyənləşdirilmişdir;
4. Müxtəlif amillərin Aİ-nin xarici siyasət fəaliyyətinin tənzimləyən instituların və institusional mexanizmlərinin işlərinə təsir etdiyini nəzərə alaraq, hazırki tədqiqat 2021-ci ilin əvvəlinədək olan proseslərin öyrənilməsi ilə qeyd olunan mövzu üzrə azərbaycanlı alimlərinin əsərlərində mövcud olan boşluqları tamamlamaq məqsədini daşıyır;
5. Dissertasiya yazılarkən yeni hərtərəfli Sazişin bağlanmasına dair Aİ ilə Azərbaycan arasında davam edən danışıqlar mövzunun aktuallığını şərtləndirir və eyni zamanda, tədqiq olunan materialın obyektiv yeniliyini müəyyənləşdirir;
6. Əvvəllər Azərbaycan elmində istifadə olunmayan xarici dillərdə olan yeni mənbələrin geniş siyahısı elmi dövriyyəyə daxil edilmişdir;
7. Qlobal və regional problemlərin vaxtında və səmərələi həllinə mane olan, aşkar edilmiş institusional çatışmamazlıqlarla bağlı bu instituların fəaliyyətinə təsir edən amillər öyrənilmiş və Aİ-nın xarici siyasət institusional arxitekturasının gələcək inkişafının mümükün istiqamətləri müəyyənləşdirmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti, Aİ-nın xarici siyasət institusional mexanizmlərinin formalaşması və onların hazırkı mərhələdəki fəaliyyətlərinin

konseptual anlayışından ibarətdir. Tədqiqatın nəticələri bu mövzuda gələcək tədqiqatlar üçün zəmin yarada bilər.

Əsərin praktik əhəmiyyəti tədqiq olunan problemin aktuallığı ilə bağlıdır. İşin materialları və ilk öncə təklif olunan nəticələr və tövsiyələr xarici siyasətin formalaşdırılması və həyata keçirilməsində iştirak edən müxtəlif dövlət qurumlarının, müasir beynəlxalq əlaqələri tədqiq edən elmi və tətbiqi mərkəzlərin, mühazirələr kursu hazırlamaq üçün müvafiq universitetlərin müəllimlərinin işinə faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Əlaqələr və Xarici Siyasət və Tarix kafedralarının birgə iclasında müzakirə edilərək təsdiq edilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin yerli və xarici elmi jurnallarda dərc olunmuş məqalələrində, eləcədə beynəlxalq konfrans və simpozium materialları məcmusunda dərc olunmuş tezislərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi işarə ilə giriş (22884), iki fəsil (I -109282; II- 126058), nəticə (9134), istifadə olunmuş ədəbiyyat siyahısı (43124), əlavələr (1378) və ixtisarlar siyahısından (1119) ibarətdir. Dissertasiya işinin ümumi həcmi: 171 səhifə və 312979 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Giriş hissəsində mövzunun elmi işlənməsinin aktuallığı və işlənilmə dərəcəsi əsaslandırılır, məqsədi və vəzifələri, eləcə də müdafiyəyə çıxarılan əsas müddəalar açıqlanır. Bundan əlavə tədqiqatın metodoları və elmi yeniliyi açıqlanır və nəzəri və praktik əhəmiyyəti göstərilir.

Birinci fəsil - "**Aİ xarici siyasətinin institusional mexanizmlərinin formalaşması və inkişafı**" adlanır.

Birinci fəslin – "**Aİ-nın institusional strukturunun formalaşmasının özəllikləri və nəzəri-metodoloji yanaşmalar**" adlı birinci paraqrafında Aİ-nin xarici siyasət fəaliyyəti ilə əlaqəli nəzəri və metodoloji baza araşdırılır, eləcə də Aİ xarici siyasətinin

institusional mexanizmlərinin struktur rəsmiləşdirilməsinin əsas mərhələləri açıqlanır. Bu dissertasiya işi çərçivəsində institusional mexanizmlər dedikdə həm bütöv institusional xarici siyasət quruluşu (əsas institular və köməkçi orqanlar), həm də Aİ xarici siyasətini həyata keçirən geniş mexanizmlər spektri (siyasi şərtlilik, maliyyələşdirmə vasitələri, məhdudlaşdırıcı tədbirlər və s.) nəzərdə tutulur. Federalizm, realizm, funksionalizm, konstruktivizm və liberalizm konsepsiyaları təhlil edilib. Lakin qeyd olunan konsepsiyalar milli dövlətlərin roluna həddindən artıq vurğu edildiyi üçün xarici siyasət qurumlarının işini tam olaraq izah edə bilmirdi. Bu boşluğu aradan qaldırmaq üçün interqovernamentalizm, rasional seçim, konstruktivizm, kommunikasiya, çox səviyyəli idarəetmə, rasional seçim kimi nəzəriyyələrin tərəfdarları cəhd etmişlər.

İlk mərhələlərdə siyasi və müdafiə sahələrində inteqrasiyaya başlamaq üçün çoxsaylı uğursuz cəhdlərə baxmayaraq, inteqrasiya proseslərinin inkişafı iqtisadi və bir sıra digər sahələrdə davam etdi. Bu o deməkdir ki, əlverişli şərait və tərəflərin siyasi iradəsinin mövcud olması nəzərə alınmaqla bu və ya digər istiqamətdə uğurla inkişaf etdirilə bilən inteqrasiya prosesini bir sıra amillər şərtləndirir. Bu nəticə bugünkü miqrasiya, genişlənmə, müdafiə və sair məsələlər nəzərdən keçirildikdə xüsusilə aktualdır. İnstitusional islahatların spesifikası Aİ-nin cari gündəmində əsas olmağa davam edən inteqrasiya proseslərinin eyni vaxtda dərinləşməsi və genişlənməsi ilə birbaşa əlaqəlidir. Dövlətlərarası və fövqalmilli elementləri özündə cəmləşdirən Aİ xarici siyasət institusional mexanizmlərinin fəaliyyətinin effektivliyi üzv ölkələrin bu mexanizmlərdən tam istifadə etmək üçün kollektiv iradəsindən və istəklərindən asılıdır.

**“Aİ xarici siyasətinin əsas və köməkçi institusional mexanizmlərinin sistemi və xüsusiyyətləri**” adlı birinci fəslin ikinci paraqrafı bütün institusional mexanizmlər sistemi təhlil olunur ki, onların klasterləri müəllifin əsas institular və köməkçi orqanlara dair tərtib etdiyi cədvəldə öz əksini tapmışdır.

Aİ-nın xarici siyasətinin institusional quruluşu məsələsi bütün Avropaya inteqrasiya prosesinin mahiyyətini anlamaq üçün əsas məsələlərdən biridir. Lissabon Sazişi əvvəlki sazişlərə dəyişikliklər gətirərək bu gün Aİ haqqında Saziş (*Treaty on the European Union,*

*TEU*) və Aİ fəaliyyəti haqqında Saziş (*Treaty on the Functioning of the European Union, TFEU*) adlanır və bu o deməkdir ki, Sazişdəki dəyişikliklər və Sazişlərin köhnə mətnləri iki hüquqi akt təşkil edir.

Aİ-nın mövcud olduğu illər ərzində onun xarici siyasət sistemi çoxsaylı institutlardan onlara tabe olan və qərar qəbul etmə, icrasına nəzarət və hökumətlərarası və kommunitar səviyyələr arasında səlahiyyət bölgüsünə nəzarət hüquqlu ixtisaslaşmış qurumlardan və maliyyə orqanlarından ibarət olan mürəkkəb bir quruluşa çevrildi.

Təbii ki, bu paraqrafda əsas diqqət hökumətlərarası (Avropa zirvəsi və Aİ Nazirlər Şurası) və kommunitar (Komissiya, Avropa Parlamenti, Məhkəmə) səviyyələrinə yönəlmişdir. Lakin bununla yanaşı bütün xarici siyasət qərarlarının qəbul edilməsi və həyata keçirilməsi, habelə onların icrasına nəzarət sahəsində vacib klaster sədrlik edən ölkə, Avropa Parlamentinin Prezidenti, Aİ Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Yüksək Nümayəndəsi, Aİ Xüsusi Nümayəndələri, Avropa Xarici Fəaliyyət Xidməti, Aİ nümayəndəlikləri və digər mühüm institutlarla əlaqəlidir. [8] Tədqiqatdan göründüyü kimi, ÜXTS sahəsinə aid olan məsələlərdə Komissiya və Parlament kimi Aİ-nin institutların rolu artır. Lakin, üzv dövlətlərin mövcud olan sistemin hökumətlərarası xarakterinin qorunması ilə bağlı səyləri dəyişilməz olaraq qalır.

Tədqiqat işində bəzən təsir uğrunda institusional rəqabətə səbəb olan təsisçi sazişlərin bir neçə boşluqları təhlil olunur. Hesab edirik ki, qərarların qəbulu və onların implementasiyası üçün Aİ-nın mürəkkəb bürokratik prosedurlarını nəzərə alaraq, sözügedən qurumlar daynaqlılıq sınağından keçməlidirlər. Bir qurumun fəaliyyəti ilə əlaqəli hər bir problem yeni yanaşma və razılaşma tələb edir ki, bu da fikrimizcə inteqrasiya prosesini ləngitmir, əksinə onu yeni qətnamələr, razılaşmalar, prosedur qaydaları və digər sənədlər vasitəsilə institusional olaraq gücləndirir.

Birinci fəslin – **"Müasir şəraitdə Aİ-nın xarici siyasətinin institusional mexanizmlərinin inkişaf tendensiyaları"** adlı üçüncü paraqrafında, bu mexanizmlərin inkişaf tendensiyalarını

---

[8] Sultanova, N. Perspectives of Further Institutional Development of the EU: High Representative of the Union for Foreign Affairs and Security and EU Foreign Policy //UK: India Quarterly, - 2019, Volume 75, Issue 4,- p.539-555

formalaşdıran ümumi (qitədəki hadisələrin inkişafı, dünya iqtisadi böhranları, geosiyasi təhdidlər qarşısında Avropa ölkələrinin həmrəyliyi) və spesifik faktorlar (Böyük Britaniyanın Aİ-dən çıxması və s.) müəyyən olunur.

ÜXTS, ümumi təhdidlər qarşısında həmrəylik və humanitar yardımın göstərilməsi "güclü tərəflər" hissəsində ətraflı araşdırılmışdır. "Güclü tərəf" qismindən təhlil olunan genişlənmə Aİ-nın institusional inkişafı üçün müsbət effektə səbəb oldu çünki belə adlandırılan "demokratik stabillik" zonası və ümumi bazar hüdudları genişlənirdi. Aİ üçün bu əhəmiyyətli bir "genişlənmə" deməkdir, lakin inteqrasiya həm də dərinə inkişaf etməlidir. Bu mənada, belə adlandırılan genişlənmə yorğunluğu (*enlargement fatigue*) "zəif tərəf" prizmasından da araşdırıldı.

"Zəif tərəflər" hissəsində bəzi qurumların səlahiyyətlərindəki bir sıra aspektlərin üst-üstə düşməsi, *Brekzit*, Aİ üzv dövlətlərinin vətəndaşlarının qərar qəbul etmə və prioritetlərin müəyyənləşdirilməsi prosesinə kifayət qədər cəlb edilməməsi, təhlükəsizlik və müdafiə məsələləri üzrə strukturlaşdırılmış əməkdaşlıq təhlil olunur. Eyni blokda Aİ sülhməramlılığını təhlil edilərək bunun institusional "ləngli" və qeyri-effektiv koordinasiyadan əziyyət çəkdiyi qənaətinə gəlinir. Sülhməramlı səylərin uğur qazanmasına bu mexanizmdəki müasir tələblərə cavab verən dəyişikliklərin edilməsi, iştirak edən ölkələrin daha koordinasiyalı iştirakı və hərbi texnologiyaların geriliyinin aradan qaldırılması üzrə tədbirlərin kömək edəcəyi qeyd olunur.

Avropa Qonşuluq Siyasəti, Avro-Aralıq dənizi Tərəfdaşlığı, birgə diplomatik xidmətlər və regional alyanslar geniş "imkanlar" hissəsində tədqiq olunmuşdur. Bu hissədə həmçinin Aİ xarici siyasətinin əsas komponentlərindən biri statusunu qazanan ekoloji təhlükəsizlik təhlil olunur. Aİ tərəfindən 2050-ci il üçün planlaşdırılan "iqlim bitərəfliyi"-nin reallaşdırılması mövcud regional və beynəlxalq enerji layihələrinin yenidən nəzərdən keçirilməsini tələb edir.

İnteqrasiya prosesin qarşısına çıxan "təhlükələrin" təhlili skeptisizm, miqrasiya, terrorizm, Aİ üzv ölkələrində sağçı meyllərin artması, Avropa qitəsinin özündə həll olunmamış mübahisələr kimi amilləri müəyyənləşdirir. Bunlarla yanaşı, "təhlükələr" prizmasında

miqrasiya böhranı də araşdırılır ki, burada geniş miqyaslı miqrasiya axınının yaratdığı əsas problem axın özü deyil, miqrantların yerləşdirilməsi ilə bağlı məsələləri həll etmək üçün təsirli institusional mexanizmlərin və həmrəyliyin olmaması vurğulanır.

Aİ-nın xarici siyasət institutları və köməkçi orqanları yarandığı gündən "təkmilləşir" və hesab edirik ki, Avropa rəhbərliyinin müasir çağırışlar kontekstində qurumları yeni şəraitə uyğunlaşdırmaq üçün inkişaf etdirmə və səmərəli tədbirlər görmə qabiliyyəti, bütün inteqrasiya prosesinin mütərəqqi inkişafı üçün əvəzolunmaz şərtdir.

İkinci fəsil - **"Aİ və Azərbaycan Respublikası: Tərəfdaşlıq Əməkdaşlığı Çərçivəsində Münasibətlər"** adlanır.

Fəslin - **"Azərbaycan Aİ-nın Cənubi Qafqazdakı xarici siyasət strategiyasında"** adlanan birinci paraqrafında hüquqi əsası 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyulmuş Azərbaycanla Aİ arasındakı münasibətlərin inkişafı araşdırılır.

SSRİ-nin dağılmasından sonra Aİ tədricən Cənubi Qafqaz bölgəsinin yeni yaranmış ölkələri ilə əməkdaşlıq əlaqələri qurmağa başlamış və bölgənin əhəmiyyətini tam qiymətləndirməsi üçün ona müəyyən bir vaxt lazım olmuşdur. Bu dövrdəki münasibətlərin təhlili Aİ-nin rəhbər strukturlarının bölgədəki vəziyyəti və orada gedən prosesləri yetərincə bilmədikləri üçün fərdi, "ayrı-ayrı ölkələr üzrə" bir yanaşma inkişaf etdirə bilmədiyi qənaətinə gəlməyə imkan verir.

1990-cı illərdə Aİ-nın Cənubi Qafqaz bölgəsindəki əsas iştirakı humanitar və maliyyə yardımı ilə əlaqəli idi və Aİ-nin proqramları, bütün ölkələr üçün eyni şəkildə, fərqli bir yanaşma olmadan hazırlanırdı. Düşünürük ki, Cənubi Qafqaz ölkələrinə belə bir "simmetrik" yanaşmanın mahiyyət etibarilə son dərəcə sadələşdirilmiş idi, gələcəkdə əməkdaşlığın dərinləşməsinə və genişlənməsinə maneə ola bilərdi və Aİ-nın "cəlbediciliyinə" zərər vura bilərdi. Aİ regionda öz iştirakını möhkəmdirməli və üzərinə daha dəqiq geosiyasi öhdəliklər götürməli idi.

Aİ son genişlənmələr nəticəsində Cənubi Qafqaza əhəmiyyətli dərəcədə yaxınlaşan sərhədlərinin təhlükəsizliyini təmin etməli idi. Bu kontekstdə Aİ-nın Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair

mövqeyi, həmçinin bəzi üzv dövlətlərin (Fransa) və qurumların (Avropa Parlamenti) qərəzli münasibəti araşdırılır.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişin qüvvəyə minməsindən sonra Aİ ilə Azərbaycan arasında münasibətlərin mühüm keyfiyyət dəyişkiliyi həmin münasibətlərin strukturlaşması oldu. Təsis olunmuş qurumların (Əməkdaşlıq Şurası, Parlament Əməkdaşlıq Komitəsi) fəaliyyəti münasibətlərin dayanaqlığını, nizamını və sistemləşdirilməsini maksimal dərəcədə təmin etdi. Yəni tərəflər arası ortaq məkanı genişləndirməyi hədəfləyən tərəfdaşlıq formatı inkişaf etməyə başladı.

İkinci fəslin **"Aİ ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq münasibətlərinin formalaşması: xüsusiyyətləri və əsas istiqamətləri"** adlı ikinci paraqrafında Avropa İttifaqı üçün əməkdaşlığı əhəmiyyətli olan Azərbaycanın etibarlı tərəfdaşa çevrilməsində əsas amillər təhlil olunur.

Təməli Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyulan Azərbaycanla Aİ arasındakı münasibətlərin hüquqi əsası enerji, ticarət, iqtisadi, təhsil və digər sahələrdə əməkdaşlığı ehtiva edirdi. Sonrakı illərdə ikitərəfli münasibətlərin gündəliyi genişləndi, qarşılıqlı səfərlərin intensivliyi artdı və tərəflər arasında Avropa Qonşuluğu və ŞT çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət mexanizmi gücləndirildi.

Aİ ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərin ən əsas sahələrindən biri olan və təməli Enerji Sahəsində Strateji Tərəfdaşlıq Memorandumu (2006) ilə qoyulan enerji əməkdaşlığı tədqiq olunmuşdur. Azərbaycanla Aİ arasında bərabərhüquqlu dialoqun gücləndirilməsi üçün möhkəm təməl qoyulmuş və ikitərəfli münasibətlərdə keyfiyyət və məzmunca yeni bir gündəm müəyyən edilmişdir.

Aİ-nin Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə Xüsusi Nümayəndəsi institutunun işinin effektivliyi, təhsil sahəsində əməkdaşlığın eləcə də Avropa Qonşuluq Siyasətinin institusional mexanizmləri təhlil edilmişdir. Azərbaycan üçün Avropa Qonşuluq Proqramında iştirakı ölkənin beynəlxalq siyasətinin ən prioritet istiqamətlərindən biri olduğu vurğulanmışdır. Avronest ŞT Üzv Dövlətlərin Parlamentlərarası Assambleyası daxil olmaqla parlament əməkdaşlığı da araşdırılmışdır. Eyni blokda, Avropa Parlamentinin

Azərbaycana qarşı qəbul etdiyi qeyri-obyektiv və qərəzli qətnaməsinə cavab olaraq Milli Məclisin 2015-ci ildə Avropa Parlamenti və Avronest ilə əməkdaşlığın dayandırılması barədə qərarın qəbul edilməsi vaxtında Azərbaycan Milli Məclisi ilə Avropa Parlamenti arasındakı münasibətlərdə böhran dövrü də nəzərdən keçirilmişdir.

Aİ-nın Azərbaycanla münasibətləri həm də Assosiasiya Sazişi, Dərin və Hərtərəfli Sərbəst Ticarət Zonasına dair Saziş, eləcə də Vizanın Asanlaşdırılması və Readmissiya Sazişləri kimi ŞT qanuni mexanizmləri kontekstində nəzərdən keçirilmişdir.

İkinci fəslin **- "Aİ ilə müasir münasibətlər kontekstində Azərbaycan Respublikasının davamlı inkişafı"** - adlı üçüncü paraqrafında Azərbaycanın davamlı inkişafı yeni ikitərəfli münasibətlər paradiqmasının formalaşmasına və Aİ ilə Azərbaycan arasında bərabərhüquqlu dialoqun möhkəmlənməsinə töhfəsindən bəhs olunur. Əsas siyasi determinant tərəflərin beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsiplərinə, xüsusən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və dəstəkləmə öhdəliyi olaraq qalır. 2017-ci ilin noyabrında Brüsseldə keçirilən beşinci ŞT sammiti bütün münaqişələrin sülh yolu ilə həllinə dair proqramın iştirakçı ölkələri tərəfindən Aİ-nın birgə və davamlı yanaşmasını nümayiş etdirdi. Sammitin yekun birgə bəyannaməsində Aİ-nın bütün ŞT ölkələrinin suverenliyini və ərazi bütövlüyünü dəstəklənməsi öhdəliyi bir daha vurğulandı.

Azərbaycanın mühüm geostrateji mövqeyini nəzərə alaraq, Aİ nəqliyyat və enerji layihələrini dəstəklədiyini dəfələrlə bildirmişdir. Bu kontekstdə Aİ, ilk növbədə, öz siyasi coğrafiyasını və "qonşuluq siyasəti"-nin siyasi-tənzimləyici alətlərini tanıtmaq üçün Azərbaycanla münasibətləri inkişaf etdirirdi. Aİ Asiyaya əlavə quru və hava ticarəti marşrutlarına çıxış əldə etməkdə də maraq göstərir. Azərbaycanın özünü bir sıra genişmiqyaslı regional nəqliyyat və ticarət layihələrini başlayan və uğurla həyata keçirən özünü təmin edən regional lider ölkə kimi göstərə bilməsi əlavə olaraq Aİ-nın Azərbaycana olan marağını stimullaşdırdı.

Dörd nəqliyyat dəhlizinin (Şimal-Cənub, Şərq-Qərb, Cənub-Qərb və Şimal-Qərb) təşviqi ilə Azərbaycanın Avrasiyadakı mühüm

nəqliyyat və logistika mərkəzlərindən biri kimi sürətli bir şəkildə formalaşması, bəzi iqtisadi cəhətdən güclü Aİ üzv ölkələri üçün Azərbaycanın tranzit və logistika mərkəzi kimi cəlbediciliyini artırır. Aİ üçün Azərbaycan çoxmodal nəqliyyat daşınma növlərinin tərəfdaşı və potensial hava ticarəti üçün qonşu kimi maraq kəsb edir. Təsadüfi deyil ki, Aİ 2018-ci ildə Azərbaycanın iki sahədə yüksək səviyyəli rəsmilər səviyyəsində dialoqun qurulması təklifinə müsbət cavab verdi: nəqliyyat məsələləri (*high-level transport dialogue*) və təhlükəsizlik məsələləri (*EU - Azerbaijan Security dialogue*).

Azərbaycan və Aİ-nın ortaq enerji layihələri, şübhəsiz ki, ŞT-nin həyata keçirilməsində əsas komponentdir. CQD bir növ xüsusi cəmləşdirən platformadır ki, burada fərqli zaman cədvəllərinə görə, Aİ strateji enerji tərəfdaşı (Azərbaycan), Aİ tərəfdaş ortağı (Gürcüstan), Aİ-na namizəd ölkələr (Türkiyə, Albaniya, Bosniya və Herseqovina), Aİ üzv dövlətləri (Macarıstan, Yunanıstan, İtaliya, Xorvatiya və Bolqarıstan) əhatə edir.

Azərbaycanın Qoşulmama Hərəkatında hazırkı sədrliyi, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq platformaların işində fəal iştirakı qlobal və regional gündəlik üzrə əməkdaşlığı gücləndirmək üçün Azərbaycanın Aİ üçün cəlbediciliyini artırır. Qloballaşma və artan iqtisadi qarşılıqlı asılılıq şəraitində dialoqa geniş sayda iştirakçıların cəlb olunması ŞT üzv ölkəsi olan Azərbaycanı cəlbedici və vacib bir tərəfdaşa çevirir. Beləliklə, Azərbaycan müxtəlif ölkələri yalnız "saatı sinxronlaşdırmaq" üçün deyil, eyni zamanda müxtəlif sahələrdə əhəmiyyətli ortaq layihələrə başlamaq üçün bir-biri ilə əlaqələr quran ölkədir.

Bu gün dünyanın dinlərarası zəmində qarşıdurmalara qapıldığı bir vaxtda, Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqindəki fəal siyasəti böyük strateji əhəmiyyətə malikdir və Şərqlə Qərb arasında bir körpü kimi Aİ-nın marağını artırır. Bununla əlaqədar olaraq Aİ Şurasının prezidenti Donald Tusk "*Azərbaycanın ənənəni və müasirliyi özündə birləşdirən, bugünkü coğrafi mənzərədəki strateji*

*mövqeyi ilə həm Qərbə, həm də Şərqə mənsub olan unikal bir ölkə olduğunu*" söyləmişdir. [9]

Dissertasiya tədqiqatının **Yekununda** aparılmış təhlilin nəticələri ümumiləşdirilir, təhlil olunan problemin sonrakı istiqamətini müəyyənləşdirməyə imkan verən əsas nəticələr formalaşdırılır və tövsiyələr verilir.

Tədqiqat göstərdi ki, institusional aparatın həddindən artıq bürokratikləşməsi hələ də özünü biruzə verməkdədir və onun bəzi mexanizmləri öz effektivliyini qismən itirmişlər. Bu mexanizmlərin öyrənilməsi və günümüzün reallıqlarına uyğunlaşmasının təhlili son dərəcə aktual görünür.

Hesab edirik ki, Azərbaycanın bərabər mövqelərdən çıxış etmək və Avropa proqramlarının ortaq farvaterində getməmək barədə mövqeyi Aİ ilə münasibətlərin milli maraqları əsasında quran Azərbaycanın xarici siyasətinin müstəqilliyini vurğulayır. Bu kontekstdə Azərbaycanla çoxşahəli bir Sazişin imzalanması tərəflər arasında bərabərhüquqlu əlaqələrin daha da dərinləşməsi üçün keyfiyyətcə yeni bir mərhələ olacaqdır.

Aİ İkinci Dünya Müharibəsindən sonra bir sülh layihəsi olaraq yaradılmışdır və müharibədən sonra yenidənqurma sahəsində böyük təcrübəyə malikdir. Vətən Müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra yaranmış yeni geosiyasi reallıqlarda, Aİ münaqişədən sonrakı dövrdə bərpa və yenidənqurma layihələrini dəstəkləyərək bölgədə sülhün və əməkdaşlığın möhkəmləndirilməsinə öz töhfəsini verə bilər.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Xarici siyasətdə ekoloji təhlükəsizlik konsepsiyası // "Uzaq Şərq Baharı – 2021" ətraf mühit və təhlükəsizlik problemlərinə dair beynəlxalq elmi-praktik konfrans, - Komsomolsk-on-Amur Dövlət Universiteti, - 30-31 mart 2021

---

[9] İlham Əliyev və Aİ Şurasının Prezidenti Donald Tusk mətbuat üçün bəyanatla çıxış etdilər // Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı - 09/07/2019 URL: *https://president.az/articles/33774*

2. Avropa İttifaqının Xüsusi Nümayəndələrinin Avropa Xarici Siyasətindəki rolu: İnsan Hüquqları üzrə AİXN-in icmalı // - Vyana: Avropa elm icmalı - 11-12 2020, - s .24-30
3. Aİ Krizis İdarəetməsinə Covid-19 Pandemiyası kontekstində Baxış // - Oslo: Norveç Beynəlxalq Elm İnkişaf Jurnalı", - 2020, - s.60-65
4. Avropa Parlamenti Avropa İttifaqının İnstitusional Çərçivəsində // - Sloveniya: Znanstvena misel jurnalı, - 2020, №41 Vol 2, - s.50-53
5. Aİ qlobal arenada: xarici siyasətin yenidən yüklənməsinə ehtiyac // - Vyana: Avropa elmi icmalı,– 2020, #1-2 - s.64-68
6. 2019 il – Aİ-nın xarici siyasət gündəmi // Moskva: "Beynəlxalq hüquq və beynəlxalq təşkilatlar" elmi jurnal, - 4 mart 2020, -s.45-50
7. Avropa Xarici Siyasət Xidməti // Moskva: Kollokvium-jurnal, - 20.02.2020, - s.15-18
8. Brexitdən sonra Aİ-nın institusional və siyasi inkişafına qısa baxış // Bakı: İnsan və Biosfer, - 2019, №14, - s.115-123
9. Aİ-nin gələcək institusional inkişaf perspektivləri: Birliyin Xarici İşlər və Təhlükəsizlik və Aİ Xarici Siyasət üzrə Yüksək Nümayəndəsi // - Böyük Britaniya: India Quarterly, - 2019, cild 75, № 4 , - s.539-555
10. Aİ-Azərbaycan: Yenilənmiş dialoq və gələcək perspektivlər // Bakı: elmi konfrans "Azərbaycan -Türkiyə Universitetləri: təhsil, elm, texnologiya", - 2019, - s.208-212
11. Aİ-nın institusional strukturunun Brekzitdən sonrakı perspektivləri // Vyana: Humanitar və Sosial elmlər Avropa Jurnalı, - 4/2019, - c. 65-72
12. Avropa İttifaqının qlobal beynəlmiləşmədə xarici siyasəti // Volqoqrad: Beynəlxalq elmi jurnal "Elm və Dünya", - 2019, 8 (72), - s.84-88
13. Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yaradılması və inkişafında ümummilli lider Heydər Əliyevin rolu // Heydər Əliyev və Azərbaycanın Milli İnkişaf Strategiyası" mövzusunda Elmi-Praktik Konfransın materialları/ Bakı: Azərbaycan

Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası - 2018 - 183-187 ç.v.

14. Avropa İttifaqında mədəniyyətlərarası dialoq konsepsiyası // Ərzurum, Türkiyə: Beynəlxalq Heydər Əliyev həsr olunmuş simpozium: Multikulturalizm və Tolerantlıq İdeologiyası çərçivəsində/ Azərbaycanın Qurucusu Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü: Heydər Əliyev və Türk Dünyası,- 13-14 Aprel 2019, - 301-304 s.

Dissertasiyanın müdafiəsi **"29" iyun 2021-ci il tarixində saat 11:00-da** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasinin Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24 May  2021-ci il

Kağızın formatı: A5

Həcm: 312979 işarə sayı

Tiraj: 30